# Tovuzda COVID-19-a qarşı mübarizə gücləndirilir

Tovuzda COVID-19-a qarşı mübarizə tədbirlərinin daha da gücləndirilməsi məqsədilə rayon icra hakimiyyəti yanında fəaliyyət göstərən operativ qərargahın videomüşavirə formatında yığıncağı keçirilmişdir.



Rayon İcra Hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndələrinin iştirakı ilə keçirilən müşavirədə RİH-in başçısı Məmməd Məmmədov çıxış edərək xüsusi karantin rejimi qaydalarına nəzarətin gücləndirilməsi ilə bağlı qarşıda duran vəzifələrdən danışmışdır. Qeyd olunmuşdur ki, rayon ərazisində sanitariya qaydalarına ciddi əməl olunmalı, bu işə nəzarət gücləndirilməli, xüsusi karantin rejimi qaydalarına tam məsuliyyətlə əməl olunmalıdır: “Qəbul edilmiş qaydalara riayət olunmasında məsuliyyət daşıyan əsas orqanlardan biri də inzibati ərazi dairələri üzrə nümayəndəliklərdir. Odur ki, nümayəndəliklər bu sahədə fəaliyyətini rayon polis şöbəsinin sahə müvəkkilləri ilə qarşılıqlı şəkildə qurmalı, ehtiyac yarandıqda operativ qərargahı məlumatlandırmalıdırlar”.

Müşavirədə o da vurğulanmışdır ki, virusa qarşı aparılan mübarizə tədbirlərinin əsas istiqamətlərindən biri də əhalinin peyvəndlənməsidir. Bu sahədə əhalinin maarifləndirilməsinə və vaxt itirmədən peyvənd olunmasına çalışmaq lazımdır.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***